

# 7-ci möcüzə

## Azərbaycan bir nömrəli sürət yarışının ən mükəmməl təşkilatçılıq modelini yaradıb

Avropanın idman paytaxtı növbəti dəfə möhtəşəm yarış astanasındadır. Buna kimi ardıcıl 6 dəfə "Formula-1" Qran-prisinə yüksək səviyyədə evsahibliyi edən Azərbaycan planetin ən güclü pilotlarının əzmkar mübarizəsinin canlı şahidi olmaq üçün sürətsevərləri birillik fasilədən sonra, aprelin 28-30-da yenidən Bakıya toplayır.

"Gözlənilməzə hazır ol" şüarı ilə keçirilən cari mövsümün 4-cü mərhələsində 28 və 29 aprel tarixlərində pilotların sərbəst yürüşləri və sıralama turları keçiriləcək. Aprelin 30-da isə möhtəşəm Azərbaycan Qran-prisinə (51 dövrə və ya 120 dəq.) start veriləcək. Digər qran-prilərdə olduğu kimi, paytaxtımızda yarışacaq komandalar da, reqlamentə əsasən, öncə iki sərbəst yürüşdə trasla tanış olacaq, maşınları yarışa hazır vəziyyətə gətirəcəklər.

Yarışın ilk günü səhər pilotlar bir saatlıq məşq keçəcəklər. Adətən nahardan sonra sıralanma turu və ya təsnifat mərhələsi təşkil olunur. Bu turun yekun nəticəsinə görə, pilotların bazar günü keçiriləcək yarışda start düzümü formalaşır.

Aprelin 30-da isə sayca 7-ci Azərbaycan Qran-prisinin yarış günüdür. Yarışanlar bir gün əvvəlki sıralanma turunun nəticələrinə görə, startda yerlərini tuturlar. Əvvəlcə sürücülər trasda bir dövrə vuraraq təkərləri və əyləcləri qızdırır, dövrənin tamamında yenidən start yerlərini tuturlar. Yarışın direktorunun start tapşırığından sonra, yəni 5 qırmızı işığın sönməsindən sonra həyəcan başlayır.

Azərbaycan Qran-prisinə rekord sayda - dünyanın 100-dən çox fərqli ölkəsindən gələn ən böyük azarkeş qrupu Bakıda olacaq. Çünki bütün tribunalara olan yerlərin hamısı tamamilə satılıb. Bu rəqəm Bakı yarışının tarixində qeydə alınmış ən yüksək göstəricidir. Bu o deməkdir ki, dünya üzərində mövcud olan 193 ölkənin yarısından çoxu öz vətəndaşlarını məhz Bakı yarışında təmsil edəcək.

"Formula-1" yarışlarının Azərbaycanın paytaxtında keçirilməsi ilə bağlı FOM (Formula One Management) ilə danışıqlar 2013-cü ildə başlanıb və 2014-cü ilin martında ilkin müqavilə imzalanıb. Azərbaycanda Qran-prinin təşkili ilə dövlət səviyyəsində məşğul olublar. Bu da layihənin statusunu və onun ölkə üçün əhəmiyyətini göstərir.

Bir neçə ildir ki, azarkeşlərin sevimlisi olan Azərbaycan Qran-prisi bu il həm trekdə, həm də trekdən kənarda bənzərsiz bir coşqu və əyləncə vəd edir. Builki sprint yarışı cari mövsümdə keçiriləcək altı sprint yarışından birincisidir. Azarkeşlər üç gün davam edəcək möhtəşəm mübarizə, yüksək rəqabət şəraitində keçəcək yarışdan sonra Bulvardakı böyük səhnədə DJ Don Diablo və DJ Hardwell konsertlərindən zövq alacaqlar.

Bu arada "William Hill" bukmeker kontoru "Formula-1" çempionatının Azərbaycan mərhələsində qələbəyə qoyulan mərclərin məzənnəsini dərc edib. Bukmekerlər hazırkı dünya çempionu Maks Ferstappeni Bakıda favorit hesab edirlər. Onun qələbə şansı ortağı Serxio Peres ilə müqayisədə dörd dəfədən çox dəyərləndirilir. Cari mövsümün ilk yürüşlərində üç dəfə finiş xəttinə üçüncü çatmış Fernando Alonso reytinqdə üçüncü yeri tutur.

Çempionatda qələbəyə qoyulan mərcdə Maks Ferstappen şəksiz favoritdir. Bukmekerlər praktik olaraq şübhə etmirlər ki, "Red Bull Racing" komandasının pilotu mövsümün yekunlarına görə üçqat dünya çempionu olacaq. Serxio Peresin Maksa rəqib olacağı ehtimalı bukmekerlərin fikrincə, olduqca aşağıdır. Digər pilotların titul almaq şansları, demək olar ki, yalnız nəzəri cəhətdən mümkündür.

"Red Bull Racing" həm də Konstruktorlar Kubokunda qələbəyə favoritdir. "Mercedes"in şansı "Aston Martin" və "Ferrari" komandalarından yüksək dəyərləndirilir.

Məlumdur ki, beynəlxalq tədbirlərin keçirilməsi mürəkkəb bir mexanizmə malikdir. Təşkilatçılıq, təhlükəsizlik, iqtisadi və kommunikasiya imkanları hər zaman həlledici rola malikdir. Bir çox ölkələr beynəlxalq tədbirlərə evsahibliyi etmək üçün rəqabət aparır, yarış və tədbirlərin ev sahibləri 5-10 il sonra üçün belə müəyyən olunur.

Bu baxımdan beynəlxalq yarış və tədbirlərin Azərbaycanda keçirilməsi ölkəmizin böyük uğurudur. Azərbaycanın dünyada etibarlı tərəfdaş, dünyəvi ölkə, güclü iqtisadiyyata, sabit və təhlükəsizliyə malik olması belə tədbirlərə evsahibliyi etməsi imkanlarını artırır və bir çox hallarda digər ölkələrlə rəqabətdə üstünlüyə sahib olur.

Azərbaycan olduqca böyük, beynəlxalq miqyaslı yarışlara, festivallara, forumlara, konfranslara - bir sözlə, nüfuzlu qlobal tədbirlərə evsahibliyi edib. Bu miqyaslı tədbirlərin keçirilməsi üçün ölkəmizə etimadın göstərilməsi təsadüfi deyil, bu, əlbəttə, Azərbaycanın qazandığı mövqeyin, ölkəmizin beynəlxalq çəkisinin, dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar qarşısında qazandığı reputasiyanın ifadəsidir. Eyni zamanda belə tədbirlər ölkəmiz, dövlətimiz üçün müəyyən dividendlər gətirir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 26 aprel.- S. 12.